


> ***Tarix boyu həmişə düşmənlər Azərbaycanın dəyərli torpaqlarını ələ keçirməyə çalışıblar. Çağdaş tarixdə bir dəfə cilular (ermənilər və asurilər), iki dəfə isə kürdlər Azərbaycan ərazisini zəbt edərək bu torpaqlarda öz hökumətlərini qurmağa çalışıblar. Amma bu xəyalpərəst işğalçıların üçü də Güney Azərbaycan türk xalqının sarsılmaz iradəsinə təslim olmaq məcburiyyətində qalıb. Ciluların (ermənilər və asurilər) Azərbaycanda etdikləri cinayətlər və sonunda Güney Azərbaycan Türklərinin sarsılmaz iradəsinin qarşısında təslim olmaları haqda daha öncə bu layihə çərçivəsində bir yazı paylaşmışıq: 1880-ci ildə Şeyx Übeydullah Azərbaycan ərazisini ələ keçirmək məqsədi ilə üsyan qaldırdı. İlk başda Savucbulaq (Mahabad) və Qoşaçay (Miyandoab) şəhərlərini ələ keçirdi...***

# Güneydə Azərbaycan ruhunu qoruyan şəhər



(əvvəli ötən sayımızda)

***Mitra məbədləri dağın yamacında oyulmuşdu və içəri girmək üçün kiçik bir girişdən başqa yolları yox idi.***

Halbuki bu kənddəki evlərin otaqları, taxçaları, dəhlizləri, axurları, xüsusi imkanları var. Bundan əlavə, evlərin arxitekturası elədir ki, hər evdən qonşu evə kommunikasiya yolu çəkilib, insanlar fövqəladə hallarda, məsələn, düşmən hücumu zamanı və ya digər ailələrlə ünsiyyətdə olsunlar. Bu evlərin bəziləri yerin altında iki və ya üç mərtəbəlidir.

Tarix boyu həmişə düşmənlər Azərbaycanın dəyərli torpaqlarını ələ keçirməyə çalışıblar. Çağdaş tarixdə bir dəfə cilular (ermənilər və asurilər), iki dəfə isə kürdlər Azərbaycan ərazisini zəbt edərək bu torpaqlarda öz hökumətlərini qurmağa çalışıblar. Amma bu xəyalpərəst işğalçıların üçü də Güney Azərbaycan türk xalqının sarsılmaz iradəsinə təslim olmaq məcburiyyətində qalıb. Ciluların (ermənilər və asurilər) Azərbaycanda etdikləri cinayətlər və sonunda Güney Azərbaycan Türklərinin sarsılmaz iradəsinin qarşısında təslim olmaları haqda daha öncə bu layihə çərçivəsində bir yazı paylaşmışıq: 1880-ci ildə Şeyx Übeydullah Azərbaycan ərazisini ələ keçirmək məqsədi ilə üsyan qaldırdı. İlk başda Savucbulaq (Mahabad) və Qoşaçay (Miyandoab) şəhərlərini ələ keçirdi. Şeyx Übeydullahın əsgərləri Qoşaçay şəhərinin demək olar bütün sakinlərini öldürərək müasir tarixin ən amansız qətliamlarından birini törətdilər. Daha sonra bu şəhərin əhalisinin bütün mal və əşyalarını qarət edərək şəhəri tamamilə yandırdılar. Bu hadisələrdən sonra Şeyx Übeydullahın ordusu bir tərəfdən Urmu (Urmiya) və digər tərəfdən Təbrizi ələ keçirmək üçün ikiyə ayrıldılar. Ancaq onları həm Urmu şəhərində, həm də hələ Təbrizə çatmadan yol üstündə Binab şəhərində Azərbaycan Türklərinin qəzəbi gözləyirdi. Şeyx Übeydullahın ordusu bir tərəfdən Urmu şəhərində, digər tərəfdən də Binab şəhərində Güney Azərbaycan Türklərinin sarsılmaz iradəsi qarşısında diz çökdü və tarixdə Qoşaçay şəhərində etdikləri cinayətlərdən başqa onlardan heç bir iz qalmadı.

Bu şəhərin əhalisi Şeyx Übeydullahın qan tökən və cinayətkar dəstələrinə qarşı atalarının cəsarətli müqavimətinin qürurlu xatirəsini unutmayıb. Həmin gün onlar təkcə öz şəhərlərini deyil, Təbrizi də işğal təhlükəsindən xilas etdilər. Bu gün o qəhrəman ataların əsl övladları Azərbaycanın tarixini, dilini, mədəniyyətini, torpağını ürəkdən qoruyurlar. Mərkəzi hökumətləri tərəfindən Güney Azərbaycan Türklərinin dilini, tarixini, mədəniyyətini məhv edib onları farslaşdırmaq məqsədi ilə həyata keçirilən assimilyasiya siyasətlərinin yüz ildən artıq davam etməsinə baxmayaraq, bu şəhərdə Azərbaycan tarixi, dili, mədəniyyəti hələ də yaşamaqdadır.

> ***Şeyx Übeydullahın ordusu bir tərəfdən Urmu şəhərində, digər tərəfdən də Binab şəhərində Güney Azərbaycan Türklərinin sarsılmaz iradəsi qarşısında diz çökdü və tarixdə Qoşaçay şəhərində etdikləri cinayətlərdən başqa onlardan heç bir iz qalmadı. Bu şəhərin əhalisi Şeyx Übeydullahın qan tökən və cinayətkar dəstələrinə qarşı atalarının cəsarətli müqavimətinin qürurlu xatirəsini unutmayıb. Həmin gün onlar təkcə öz şəhərlərini deyil, Təbrizi də işğal təhlükəsindən xilas etdilər. Bu gün o qəhrəman ataların əsl övladları Azərbaycanın tarixini, dilini, mədəniyyətini, torpağını ürəkdən qoruyurlar.***

Daha əvvəlki yazılarımızda da qeyd etdiyimiz kimi, Azərbaycan rəqsi və musiqisi, azərbaycanlı həvəskarların çıxışları, aşıqların ifaları, bayatılar, Azərbaycan muğamatı, ilin son çərşənbə axşamı dəbləri, Novruz bayramı dəbləri, sayaçılar, təkəmçilər, çillə gecəsi, Koroğlu dastanı kimi adətlər, dəblər və ənənələr bir şəhərdə yaşadıqca, demək ki, Azərbaycan hələ də o şəhərdə yaşayır. Günümüzdə Güney Azərbaycan türkləri, xüsusilə gənc nəsil, hökumətin bütün maneə və sərtliklərinə baxmayaraq, Azərbaycanlılığını, türklüyünü, mədəniyyətini, tarixini və dilini qoruyub saxlamağa qərarlı görünür. Mərkəzi hökumətin mədəni, iqtisadi və siyasi təzyiqlərinə qarşı qəti iradə ilə dayanan, Azərbaycanın maddi və mənəvi varlıqlarını qorumağa cəhd göstərən yeni nəsil, Güney Azərbaycana parlaq bir gələcək vəd edir. Azərbaycan mədəniyyətini silməyə çalışan dövlət qurumları ilə müqayisədə onların imkanları çox az və məhduddur, lakin onların sarsılmaz iradəsi vardır.

***Elə həmin iradənin nəticəsində bir zamanlar Şeyx Übeydullahın qan tökən və qəddar adamlarına qalib gəliblər və bu gün öz kimliklərini və maddi-mənəvi varlıqlarını qorumaya çalışırlar. Yüz ildən artıq sürən dövlət dəstəkli assimilyasiya siyasətlərinə baxmayaraq, bu gün bu şəhərdə dilimiz, tariximiz, mədəniyyətimiz yaşamaqda və hətta çiçəklənməkdədir. Bunu biz bu şəhərin əhalisinin gündəlik həyatında, danışdıqları dildə, qeyd etdikləri bayramlarda və şənliklərdə, toy və yaslarında, hətta açdıqları süfrələrdə və toxuduqları xalçalarda görə bilərik. Bunu biz xüsusilə yeni nəslin Ana dilinə və Azərbaycan mədəniyyətinə verdiyi yüksək dəyərdə görürük. Deməli Binab sadəcə tarixdə deyil, günümüzdə də bir Azərbaycan şəhəridir.***